Azərbaycan Respublikasının Prezidenti Azərbaycan və Macarıstan arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Fərman imzalayıb



2



Prezident İlham Əliyev: «Bəşəriyyət pandemiyaya qarşı mübarizəyə yalnız həmrəylik və birgə səylər sayəsində nail ola bilər»

2



Milli Məclisdə donorluq və transplantasiya üzrə qanun layihəsi müzakirə edildi

3


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 17-18 (705) 30 sentyabr 2020-ci il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Hərbi Hospitalda müalicə olunan yaralı hərbçilərə baş çəkiblər



3

## Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Avropa Regional Komitəsinin 70-ci sessiyası virtual formatda keçirilib



5

## Səhiyyə Nazirliyi ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının davamlı əməkdaşlıq məsələləri müzakirə edildi



5


Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az


## BMT Baş Assambleyası koronavirus infeksiyası ilə bağlı qətnamə qəbul edib



3

*Афоризм*

*Уникальность - это дар Бога, особенность - ваша собственная попытка.*

*Ошо*

## «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Macarıstanın İnsan Resursları Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında» Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

***Azərbaycan Respublikası Prezidentinin Fərmanı***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Macarıstanın İnsan Resursları Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında» 2020-ci il iyulun 17-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Macarıstan Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 21 sentyabr 2020-ci il.*

## Prezident İlham Əliyev: «Bu gün davam edən COVID-19 pandemiyası multilateralizmin əhəmiyyətini bir daha nümayiş etdirir»

**BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclas keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev iclasda videoformatda, həm Qoşulmama Hərəkatının sədri, həm də Azərbaycan Prezidenti kimi çıxış edib.

Dövlətimizin başçısı Qoşulmama Hərəkatına üzv dövlətlərin adından danışarkən qeyd edib ki, narahatlıq doğuran yeni sahələr və çağırışlar meydana gəlib. BMT Nizamnaməsinin prinsip və məqsədlərinin, beynəlxalq hüququn prinsiplərinin bərqərar olunması və qorunması üçün beynəlxalq ictimaiyyət tərəfindən müvafiq öhdəlik yenidən nümayiş etdirilməlidir.

Qoşulmama Hərəkatının sədri bildirib ki, bu gün davam edən COVID-19 pandemiyası multilateralizmin əhəmiyyətini bir daha nümayiş etdirir.

Azərbaycan adından çıxış edərkən Prezident İlham Əliyev 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv olduğu vaxtdan indiyədək Azərbaycanın bu qurumda fəaliyyətindən danışıb. Xatırladıb ki, BMT ilə səmərəli əməkdaşlıq quran Azərbaycan 155 dövlətin dəstəyi ilə 2012-2013-cü illərdə Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Hazırda ölkəmiz 120 dövlətin yekdil dəstəyi ilə Qoşulmama Hərəkatına sədrlik edir: «Qoşulmama Hərəkatının COVID-19-a qarşı onlayn formatda Zirvə görüşü təşəbbüsümüz əsasında 2020-ci ilin may ayında keçirildi. Zirvə görüşündə mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizə üzrə dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdim. Bu təşəbbüsü 130-dan çox ölkə dəstəklədi.

BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyası cari il iyulun 10-da çağırılmışdır. Hesab edirəm ki, xüsusi sessiya zamanı dövlət və hökumət başçıları səviyyəsində ümumi müzakirələr pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaqdır. Həmçinin onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə böyük töhfə verəcəkdir.

Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət nəzarət altındadır. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə töhfələri etmişik. COVID pandemiyası ərzində Azərbaycan 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib».

Sonda Azərbaycan Prezidenti bəyan edib ki, ölkəmiz BMT-nin daha da güclənməsi, onun beynəlxalq münasibətlərdə əhəmiyyətinin və nüfuzunun yüksəlməsi üçün digər dövlətlərlə birgə işləməyə hazırdır.

## Dövlət başçısı və birinci xanım yeni təcili tibbi yardım maşınlarına baxış keçiriblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizə yeni gətirilən təcili tibbi yardım avtomobilləri ilə tanış olublar.**

Koronavirusla mübarizə çərçivəsində tibbi xidmətlərin keyfiyyətinin daha yüksək səviyyəyə çatdırılması, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, o cümlədən yeni təcili tibbi yardım avtomobillərinin təminatı vacib məsələlərdir.

Prezident İlham Əliyevin tapşırığı ilə bu sahədə bütün lazımi işlər görülür. Yeni sifariş olunan təcili tibbi yardım avtomobillərinin ilk hissəsi iyul ayında, növbəti hissəsi isə indi gətirilib.

Yeni gətirilən avtomobillər həm sadə, həm də reanimobil kimi dəstləşdirilib. Ambulansların salonlarının təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə və reanimasiya tədbirlərinin icra olunmasına imkan verir.

Avtomobillər bir sıra özünəməxsus özəlliklərə malikdir.



Belə ki, «Mercedes Sprinter 416» bazasında təcili tibbi yardım avtomobilləri (reanimobil) avadanlıq və burada göstərilən tibbi yardımın genişliyi baxımından digər ambulanslardan fərqlənir. Avtomobillər bir neçə xərəklə — əsas xərək, çoxfunksiyalı xərək (pilləsiz), scoop xərək, onurğa xərəyi, vakuum xərəyi və pompa, daşıma çadırı, üfürülən, dartma və vakuum şina dəstləri, defibrilyator, portativ süni tənəffüs aparatı, inhalyator, elektrokardioqraf, reanimasiya çantası və s. vasitələrlə təchiz edilib.

«Ford Transit» bazasında təcili tibbi yardım avtomobilləri isə ana xərək və döşək, sovurma avadanlığı, oksigen balonu və s. ilə təchiz olunub.

Yeni təcili yardım maşınları ölkəmizdə COVID-19-la səmərəli mübarizə aparılmasında əhəmiyyətli rol oynayacaq.

## Prezident İlham Əliyev: «Bəşəriyyət pandemiyaya qarşı mübarizəyə yalnız həmrəylik və birgə səylər sayəsində nail ola bilər»

***«COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi» mövzusunda dövlət və hökumət başçılarının videotoplantısı keçirilib***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət və hökumət başçılarının «COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi» mövzusunda videoformatda keçirilmiş toplantısında çıxış edib.**

Dövlətimizin başçısı məlumat verib ki, «Minilliyin İnkişaf Məqsədləri»nə nail olmuş Azərbaycan «Dayanıqlı İnkişaf Məqsədləri»nin icrasına da mühüm əhəmiyyət verir və bu sahədə ciddi irəliləyiş əldə edib. Nailiyyətlərimizin əks olunduğu «2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı»ndakı «Dayanıqlı İnkişaf Hədəfləri İndeksi»nə görə Azərbaycan 166 ölkə arasında 54-cü pillədədir.

Prezident İlham Əliyev Dayanıqlı İnkişaf Məqsədləri arasında iqtisadi və sosial hədəflər üzrə ölkəmizdə qazanılan uğurlardan danışıb. Qeyd edib ki, Azərbaycan enerji sahəsindən əldə olunan gəlirlərin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsü səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdədir.

Dövlət başçısı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, bununla bağlı meydana çıxan sosial problemlər və onların həlli üzrə görülən işlərdən danışıb. Bildirib ki, torpaqlarımızın Ermənistan tərəfindən işğalı nəticəsində meydana gəlmiş çətinliklər səbəbindən Azərbaycan müstəqilliyinin ilk illərində beynəlxalq ictimaiyyətdən humanitar yardım qəbul edirdi. Sonra isə özü donor ölkəyə çevrildi və son 15 ildə 120-yə yaxın ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Prezident İlham Əliyev söyləyib ki, COVID-19 pandemiyası dünyanın bütün ölkələrinə mənfi təsir edib. Milyonlarla insanın kəskin yoxsulluq vəziyyətinə düşəcəyi gözlənilməndir. Bizim iqtisadiyyata da təsir etmiş pandemiya dövründə dövlət gəlirlərinin azalmasına baxmayaraq, hökumət iş yerlərinin və səhiyyənin qorunması, habelə iqtisadi inkişafı təmin etmək məqsədilə ümumi daxili məhsulun 3 faizi həcmində maliyyə vəsaiti ayırıb. Pandemiyanın fəsadlarının aradan qaldırılması, iqtisadi sabitlik, makroiqtisadi və maliyyə dayanıqlığının təmin edilməsi, işsizlik probleminin həlli məqsədilə 2 milyard dollar həcmində iqtisadi-sosial yardım paketi təqdim olunub. Sosial dəstək tədbirləri təqribən 5 milyon vətəndaşı, yəni ölkə əhalisinin yarısını əhatə edir.

Dövlət başçısı xüsusi vurğulayıb ki, pandemiya ilə mübarizənin maliyyələşdirilməsi xarici maliyyə yardımı olmadan, yalnız daxili mənbələr hesabına həyata keçirilib. Bundan əlavə, Azərbaycan COVID-19 ilə bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib. Prezident bildirib ki, pandemiyadan sonrakı dövrdə bizim əsas prioritetlərimiz iqtisadi inkişafı, iqtisadi və maliyyə sabitliyini təmin etmək, sağlam və rəqabətqabiliyyətli insan kapitalını daha da inkişaf etdirmək, dayanıqlı iş yerləri yaratmaq və iqtisadi fəaliyyətin yeni sahələrini inkişaf etdirməkdən ibarət olacaq.

«Bəşəriyyət pandemiyaya qarşı mübarizəyə, onun fəsadlarının aradan qaldırılmasına yalnız həmrəylik və birgə səylər sayəsində nail ola bilər», – deyən Prezident İlham Əliyev xatırladıb ki, Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə üzrə Xüsusi Sessiyasının keçirilməsi təklifi BMT-nin üzvü olan 130-dan çox ölkə tərəfindən dəstəklənib: «İnanıram ki, Xüsusi Sessiya pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaq və onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə töhfə verəcəkdir».

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Hərbi Hospitalda müalicə olunan yaralı hərbçilərə baş çəkiblər

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüblər.**

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verib.

Dövlət başçısı görüşdə çıxış edərək deyib: «Allah şəfa versin. Əziz uşaqlar, siz Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər almısınız, yaralanmısınız. Həkimlər sizə yaxşı baxırlar. Əminəm, həkimlər əllərindən gələni edəcəklər ki, siz tezliklə sağalıb normal həyata qayıdasınız.

Mənə verilən məlumata görə, bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşlarını davam etdirsinlər. Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar».



Prezident İlham Əliyev Vətən uğrunda gedən döyüşlərdə şəhid olanlara Allahdan rəhmət, onların ailələrinə, yaxınlarına səbir diləyib: «Onların qanı yerdə qalmır və qalmayacaqdır. Düşmənə layiqli cavab verilir. Eyni zamanda, Qarabağ qazilərinə də dövlət tərəfindən lazımi dəstək göstərilir, onların məişət problemləri həll olunur. Siz də əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq və sizin tezliklə burada sağalıb normal həyata qayıtmağınız üçün həkimlər əllərindən gələni edirlər və edəcəklər».

Azərbaycanın öz doğma torpağında vuruşduğunu vurğulayan dövlət başçısı burada müalicə alanlara «siz haqq yolunda yaralanmısınız» deyib: «Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır. Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik».

Çıxışının sonunda Prezident İlham Əliyev yaralılara müraciətlə deyib: «Mən sizi təbrik etmək istəyirəm. Çünki siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub, öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Eyni zamanda, sizi belə vəziyyətdə görmək mənim üçün, hamımız üçün çox ağırdır. Amma əmin ola bilərsiniz ki, sizin sağlamlığınız üçün nə lazımsa, biz onu da edəcəyik. Bizim bütün xəstəxanalarda, hərbi hospitallarda hazırda müalicə alan hər bir insan xüsusi qayğıya layiqdir və bütün həkimlər, nəinki həkimlər, bizim bütün xalqımız sizə dəstək olmalıdır. Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq. Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız. Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib.

Mən fürsətdən istifadə edib, sizin və bu gün bütün digər yaralı hərbçilərimizin, eyni zamanda, şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyirəm. Onlara öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Qəhrəman övladlar yetişdiriblər. Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!»

Mayor Etibar Camalov Ali Baş Komandana təşəkkür edib: «Sizin bu qüdrətli sözlərinizdən biz qürur duyuruq. Həqiqətən də Azərbaycan əsgəri düşmənin qarşısını aldı, düşmənə layiqli cavablar verdi... Çox sağ olsun həkim kollektivi, bizə çox böyük diqqət göstərir. Çox yaxın bir zamanda bütün döyüşçü yoldaşlarımızla cəbhə bölgəsinə qayıtmağa hazırıq».

## BMT Baş Assambleyası koronavirus infeksiyası ilə bağlı qətnamə qəbul edib

**Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası «Koronavirus xəstəliyinin pandemiyasına qarşı hərtərəfli və əlaqələndirilmiş reaksiya tədbirləri barədə» qətnaməni böyük səs çoxluğu ilə qəbul edib.**



COVID-19 pandemiyasını BMT tarixində ən böyük qlobal problemlərdən biri adlandıran sənəddə bu epidemiyaya qarşı qlobal reaksiyanın əsas siyasi və sosial-iqtisadi ölçüləri öz əksini tapıb. Burada koronavirusa qarşı mübarizə məqsədilə ilkin tibbi-sanitariya yardımı, əhalinin səhiyyə xidmətləri və vaksinasiya ilə ümumi əhatə olunması, dərmanlara, vaksinlərə və tibbi avadanlığa əlçatanlığın təmin edilməsi, eləcə də bütün dövlətlərin davamlı inkişaf naminə iqtisadiyyatın bərpası üzrə səylərinin əlaqələndirilməsinin vacibliyi vurğulanıb.

Qətnamə layihəsinin əlaqələndiricisi Adela Raz bildirib ki, bu sənəd yeni bir xəstəliyə cavab reaksiyası olmaqla yanaşı, həm də koronavirus qurbanlarının xatirəsinə ehtiram ifadəsidir. Onun sözlərinə görə, indi Yer kürəsi İkinci dünya müharibəsindən sonra ən pis iqtisadi tənəzzül yaşayır: «Biz həqiqətən də BMT-nin əsası qoyulandan bəri ən ciddi qlobal fəlakətlə üz-üzə dayanmışıq».

Qətnamədə dövlətlərə koronavirus əleyhinə gələcək vaksinin hamı üçün əlçatanlığını təmin etmək, həmçinin dərmanlarla və fərdi qoruyucu vasitələrlə möhtəkirliyin, onları hədsiz çox alıb ehtiyat saxlamağın qarşısını almaq çağırışı edilir.

Üzv ölkələr milli hökumətlərin qəbul etdiyi tədbirlərə yardım etmək üçün BMT qurumlarının gördüyü işləri təqdir ediblər. Bu qurumlar arasında Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ümumi sistem səylərində əsas liderlik rolu xüsusi qeyd olunub.

## Milli Məclisdə donorluq və transplantasiya üzrə qanun layihəsi müzakirə edildi

**Milli Məclisin 2020-ci ilin payız sessiyasının ilk iclasında parlamentin spikeri Sahibə Qafarova giriş nitqi söyləyib, görülmüş işlər barədə məlumat verib, gündəliyə 22 məsələnin daxil olduğunu bildirib.**

Gündəlikdəki məsələlərin müzakirəsi zamanı Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında» qanun layihəsini birinci oxunuşda təqdim edib. Komitə sədri bildirib ki, dünyada insan orqan və toxumalarının donorluğu və transplantasiyası təbabətin nisbətən yeni sahəsi olsa da, sürətlə inkişaf edir. Orqan nəqlinin insanların ömrünü xeyli uzatdığı elmə artıq məlumdur. Əhliman Əmiraslanov bu sahədəki dünya təcrübəsindən söz açaraq bildirib ki, Azərbaycanda artıq böyrək, qaraciyər, diz oynaqları köçürülməsi əməliyyatları uğurla yerinə yetirilir. Ölkəmizdə qanunvericilik baxımından meyit donordan istifadə sahəsində boşluq olduğuna görə, ancaq canlı donordan götürülmüş orqanlardan istifadə olunur ki, bu da əlavə risk yaradır. Komitə sədri yeni hazırlanan qanun layihəsində bu sahədəki mühüm məqamların diqqətlə araşdırıldığını və nəzərə alındığını vurğulayıb. Bildirilib ki, layihə bütün aidiyyətli qurumların mütəxəssislərinin iştirakı ilə ictimai müzakirədən keçirilib və rəylər alınıb.

Sənəd orqan transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, transplantasiya sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin, tibb işçilərinin hüquq və vəzifələrini müəyyən edir, buradan irəli gələn münasibətləri tənzimləyir. 5 fəsil, 35 maddədən ibarət sənəddə qanunun tətbiq dairəsi, donorluğun və transplantasiyanın əsas prinsipləri, qayda və şərtləri, bu sahəyə yardımın təşkili, transplantasiya işini həyata keçirən mütəxəssislərin hüquq və vəzifələri, resipiyentlərin uçotu, donorluq işinin koordinasiyası, donor orqanlarının resipiyentlər arasında bölüşdürülməsi kimi məsələlər ehtiva olunub.

Müzakirələr zamanı Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov, Qənirə Paşayeva, Musa Quliyev, deputatlardan Qüdrət Həsənquliyev, Sahib Alıyev, Elnur Allahverdiyev, Nigar Arpadarai, İlham Məmmədov qanun layihəsi ilə bağlı rəy və təkliflərini səsləndiriblər.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Qeyd edək ki, Milli Məclisin 2020-ci il payız sessiyasının təsdiqlənmiş qanunvericilik işləri planına əsasən, sessiya ərzində səhiyyə qanunvericiliyinə aid sənədlərdən «İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında» qanun layihəsi ilə yanaşı, «Reproduktiv sağlamlıq haqqında» qanun layihəsinin də müzakirəsi nəzərdə tutulur.

# Milli Məclisin Səhiyyə komitəsinin payız sessiyasında iş planı müzakirə edildi

**Milli Məclisin Səhiyyə komitəsinin payız sessiyasında ilk iclası keçirilib.**

Komitənin sədri Əhliman Əmiraslanov gündəliyi təqdim edib.

Əvvəlcə Milli Məclisin yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlərin hesabatı dinlənilib. Məlumat verilib ki, hesabat dövründə komitədə 8 iclas keçirilib, 21 məsələ müzakirə olunub. Həmin məsələlərdən 17-si qanun layihəsi olub. Komitədə üç oxunuşda müzakirədən keçən həmin qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasında qəbul edilib.



Hesabat dövründə komitəyə 140 ərizə və şikayət daxil olub. Həmin müraciətlərin araşdırılaraq tədbir görülməsi üçün müvafiq təşkilatlara 100 məktub göndərilib.

Əhliman Əmiraslanov qeyd edib ki, yeni növ koronavirus (COVID-19) pandemiyası ilə bağlı problemlər Səhiyyə komitəsinin üzvlərinin xüsusi diqqətində olub. Pandemiya başlanandan indiyədək deputatlar vətəndaşlarla müntəzəm görüşlər keçirib, yerlərdə vəziyyəti öyrənib, seçicilərin qayğı və çətinliklərinə həssas yanaşaraq problemlərinin həllinə yardımçı olublar.

Yaz və növbədənkənar sessiyalar dövründə komitə COVID-19-la bağlı iki dinləmə təşkil edib. Geniş auditoriyada mövcud vəziyyət və qarşıda duran məsələlər müzakirə olunub. Türkdilli ölkələrdə COVID-19-la əlaqədar vəziyyətin müzakirə edildiyi sonuncu videokonfransda da məlum olub ki, ən yaxşı vəziyyət Azərbaycandadır.

Əhliman Əmiraslanov vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə görülən əsaslı tədbirlər bütün göstəricilərdə müsbət dinamikanı təmin edib. Operativ Qərargahın fəaliyyəti də səmərəli nəticələrini verir.

Hesabat dinlənildikdən sonra komitədə geniş müzakirələr aparılıb. Deputatlar Məlahət İbrahimqızı, İlham Məmmədov, Kamilə Əliyeva, Soltan Məmmədov, Müşfiq Məmmədli, Sədaqət Vəliyeva, komitə sədrinin müavini Rəşad Mahmudov hesabata dair fikirlərini açıqlayıblar, səhiyyə sahəsi ilə əlaqədar bir sıra təkliflər irəli sürüblər.

Yekunda Səhiyyə komitəsinin parlamentin yaz və növbədənkənar sessiyaları dövründə gördüyü işlər məqbul sayılıb.

Sonra komitə sədri 2020-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı barədə məlumat verib. Qeyd edib ki, qarşıdakı sessiyada müxtəlif qurumlardan komitəyə daxil olacaq qanun layihələri, 2021-ci ilin dövlət büdcəsinin müzakirəsi ilə yanaşı, komitədə «İnsan orqanlarının transplantasiyası haqqında» və «Reproduktiv sağlamlıq haqqında» qanun layihələri də Milli Məclisin müzakirəsinə çıxarılacaq.

Həmçinin komitədə COVID-19, icbari sığortanın tətbiqi, onkoloji xəstəliklər və digər mövzularda dinləmələr keçiriləcək, müxtəlif orqanlardan və vətəndaşlardan daxil olan təkliflərlə bağlı tədbirlər təşkil ediləcək.

Müzakirə zamanı səslənən bəzi təkliflər də iş planına daxil edilib və iş planı təsdiqlənib.

# Naxçıvan Muxtar Respublikasına 7 ambulans təqdim edilib

**Azərbaycan Respublikası Prezidentinin adından Naxçıvan Muxtar Respublikasına verilən 7 təcili tibbi yardım avtomobili Respublika Olimpiya Mərkəzində Muxtar Respublikanın Baş Nazirinə təqdim edilib.**

Dövlət başçısının tapşırığına əsasən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən sifariş olunan ambulans maşınların ilk hissəsi ölkəmizə bu ilin iyul ayında, növbəti hissəsi isə sentyabr ayında gətirilib.

Naxçıvan Muxtar Respublikasının Baş Naziri Səbuhi Məmmədov «Mercedes Sprinter 316» markalı avtomobil bazasında yığılmış 7 ədəd təcili tibbi yardım avtomobilini qəbul edib. Bunlardan 5 ədədi sadə ambulans, 2 ədədi isə reanimobildir.

Naxçıvan Muxtar Respublikasının Baş Naziri söyləyib ki, dövlət başçısının səhiyyə sahəsində yürütdüyü məqsədyönlü siyasətin nəticəsində bu gün Azərbaycan Respublikası koronavirus pandemiyası ilə yüksək səviyyədə mübarizə aparır. Baş Nazir təqdim edilən təcili tibbi yardım avtomobillərini Muxtar Respublikada səhiyyə sahəsində həyata keçirilən işlərə töhfə adlandırıb, bunu yüksək qiymətləndirdiklərini deyib, Azərbaycan Prezidentinə və Birinci vitse-prezidentə təşəkkür bildirib.

# Azərbaycan Ordusunda tibbi təminat, təchizat və qan ehtiyatları ilə bağlı heç bir problem yoxdur

**Ermənistan tərəfindən Azərbaycana qarşı başladılan genişmiqyaslı hücumun ilk saatlarından etibarən Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin bütün hərbi tibbi heyəti gücləndirilmiş iş rejimində fasiləsiz tibbi xidmət göstərir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, döyüşlərin getdiyi bütün istiqamətlərdə mobil səhra cərrahiyyə hospitalları fəaliyyətdədir və tibb müəssisələri peşəkar həkim kadrları ilə tam komplektləşdirilib. Hərbi tibb müəssisələrinə daxil olan yaralılar arasında həyatını itirən hərbi qulluqçumuz yoxdur. Bütün imkanlarımız səfərbər olunub və yaralı hərbi qulluqçuların tezliklə müalicə edilərək sağlamlıqlarına qovuşmaları üçün hərbi tibb personalı var qüvvəsi ilə çalışır.

Azərbaycan Ordusunda tibbi təminat, təchizat və qan komponentləri ehtiyatları ilə bağlı heç bir problem yoxdur. Ordumuzun qan və qan komponentlərinə olan tələbatı Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Qan Bankı bölməsi tərəfindən tam təmin edilir və hərbi tibb müəssisələrində bütün qan qruplarından ehtiyatlar mövcuddur.

# Türkiyənin Səhiyyə naziri: «Azərbaycana hər bir tibbi yardımı etməyə hazırıq»





**Türkiyənin Səhiyyə naziri Fəxrəddin Qoca Azərbaycan Səhiyyə naziri Oqtay Şirəliyevə telefon zəngi edib.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Fəxrəddin Qoca Ermənistanın Azərbaycan torpaqlarına hücumunu və dinc əhalini atəşə tutmasını qınayıb, işğalçı Ermənistanın Azərbaycana terrorçu, xain təcavüzü nəticəsində həlak olan şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyib.

Türkiyəli nazir hər hansı tibbi ehtiyac yaranarsa, Azərbaycana yardım etməyə hazır olduqlarını vurğulayıb.

Səhiyyə naziri Oqtay Şirəliyev öz növbəsində türkiyəli həmkarına minnətdarlığını bildirib, daim dəstək göstərdiyinə görə qardaş Türkiyəyə təşəkkür edib.

# Səhiyyə Nazirliyi pandemiya ilə mübarizədə iştirak edən işçilərə müddətli əlavələri ödəyib

**Pandemiya ilə mübarizədə iştirak edən tibb və qeyri-tibb işçilərinə iyul və avqust ayları üzrə əməkhaqlarına müddətli əlavələr Səhiyyə Nazirliyi tərəfindən sentyabr ayı ərzində ödənilib.**

Tibb işçilərinin əməkhaqlarına müddətli əlavələrin ödənişi «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 iyun 2020-ci il tarixli 202 nömrəli qərarına əsasən həyata keçirilib.

İyul ayı üçün Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələri üzrə 993 tibb işçisinə vahid tarif (vəzifə) maaşının 5 misli həcmində, cəmi 1,36 milyon manat vəsait ödənilib. Bu tibb işçiləri Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik və Tədris Cərrahiyyə Klinikalarının, Bakı Sağlamlıq Mərkəzinin, həmçinin Respublika Psixiatriya Xəstəxanasının yeni növ koronavirus infeksiyasına yoluxmuş xəstələrə qulluq edən tibb işçiləri olub. Avqust ayı üçün həmin kateqoriyadan olan tibb işçilərinin sayı 618 nəfər, ödənilən məbləğ 477 min manat təşkil edib.

Nazirliyin tabeliyində olan tibb müəssisələri üzrə vahid tarif (vəzifə) maaşının 4 misli həcmində müddətli əlavələr iyul ayı üçün 166 nəfər tibb işçisinə (cəmi 298 min manat), avqust ayı üçün 160 nəfərə (cəmi 280 min manat) ödənilib. Bu işçilər bioloji yaxmanın laborator müayinəsi ilə məşğul olan laboratoriya işçiləri, Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi və onun regional bölmələrinin, eləcə də Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin işçiləri olub.

Bundan başqa, iyul ayı üçün Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələri üzrə 1076 işçiyə vahid tarif (vəzifə) maaşının 3 misli həcmində, cəmi 755 min manat vəsait ödənilib. Bu işçilər Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin, rayon və şəhər gigiyena və epidemiologiya mərkəzlərinin, Bakı şəhər Dezinfeksiya Mərkəzinin, Sanitar Karantin Mərkəzinin tibbi profilaktik tədbirləri həyata keçirən həkim, orta tibb heyəti, o cümlədən dezinfektorlar və digər işçilər olub. Avqust ayı üçün bu rəqəmlər 1072 tibb işçisinə cəmi 530 min manat vəsait təşkil edib.

Qeyd edilən işçilərin əməkhaqlarına müddətli əlavələr tibb müəssisələri tərəfindən göndərilən siyahılara uyğun olaraq, yeni növ koronavirus infeksiyası ilə mübarizəyə cəlb edilmiş iş vaxtına mütənasib surətdə ödənilib.

# Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Avropa Regional Komitəsinin 70-ci sessiyası virtual formatda keçirilib

**Tədbirdə Azərbaycanı təmsil edən Səhiyyə naziri Oqtay Şirəliyev ölkəmizdə COVID-19 epidemiyasına qarşı həyata keçirilən mübarizə tədbirləri ilə bağlı çıxış edib.**

ÜST Avropa Regional Komitəsinin 70-ci yubiley sessiyası münasibətilə iştirakçıları təbrik edən nazir təşkilatın yaradılması və inkişafı yolunda böyük zəhmət çəkmiş insanlara minnətdarlığını bildirib. O, bu gün Regional Komitənin sükanı arxasında 25 illik praktik iş təcrübəsi olan doktor Hans Klüge kimi bir insan durduğuna görə, ictimai səhiyyə və sağlamlıq qarşısında dayanan istənilən qlobal çağırışın öhdəsindən gələnəcəyinə inamını ifadə edib.

Oqtay Şirəliyev vurğulayıb ki, koronavirus epidemiyası bütün ölkələrə bu dünyada nə dərəcədə qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqda olduğumuzu bir daha nümayiş etdirdi: «Bütün dünya ölkələrini pandemiya ilə mübarizədə birləşdirən bu bəla bizim ölkədən də yan keçmədi. Azərbaycanda ilk yoluxma halları təsbit edilən andan hökumət yanında Operativ Qərargah yaradıldı və o, infeksiyanın ölkəmizdə yayılmasının qarşısını almaq üçün dəqiq strategiya hazırladı.

Xəstələrin müalicəsinin əsas yükünün stasionar müəssisələrin üzərinə düşdüyü bir çox ölkələrdən fərqli olaraq, bizdə ambulator-poliklinika müəssisələrinin geniş şəbəkəsi, xeyli sayda sahə terapevtləri və pediatrları bu işə cəlb ediliblər. Bu, ilk növbədə, xəstəliyin erkən mərhələlərdə aşkarlanmasına və müalicəyə vaxtında başlanmasına, eyni zamanda, təmasda olan şəxslərin müəyyənləşdirilməsi, təcrid olunması və müşahidə altında saxlanmasına, beləliklə, infeksiyanın yayılmasının qarşısını almağa imkan verir.



Virus aşkarlanan bütün pasiyentlər lazımi dərman preparatları paketi ilə pulsuz təmin edilirlər.

Qeyd etmək lazımdır ki, koronavirusun ambulator müalicəsi çox yaxşı nəticə verdi və xəstələrin hospitalizasiyasına göstərişlərin kəskin azalmasına imkan yaratdı. Hazırda yoluxmuş şəxslərin yalnız 10 faizdən az hissəsi, əsasən risk qrupuna aid və yanaşı somatik xəstəlikləri olan şəxslər xəstəxanalara yerləşdirilirlər.

ÜST-nin həm Baş Qərargahı, həm də Regional ofisi ilə əməkdaşlıq, eləcə də regional və beynəlxalq təşkilatlar çərçivəsində digər ölkələrlə əməkdaşlıq və təcrübə mübadiləsi Azərbaycan üçün koronavirusla mübarizədə əhəmiyyətli dəstək oldu.

Bu gün ölkəmizdə koronavirusla mübarizə hökumətin tam nəzarəti altındadır və karantin rejimi mərhələli şəkildə yumşaldılır.

Əminliklə demək olar ki, vaxtında həyata keçirilmiş bütün bu qəti tədbirlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəqiq və uzaqgörən siyasətinin nəticəsidir. Qlobal pandemiya və iqtisadi durğunluq şəraitində dövlət başçısının göstəriş və sərəncamları ilə bir sıra çox mühüm tədbirlər həyata keçirilib:

Belə ki, ölkədə 700-dən artıq müasir səhiyyə müəssisəsi olsa da, koronaviruslu xəstələrin müalicəsi üçün 11 yeni modul tipli xəstəxana ən qısa müddətdə inşa edilib. Pandemiyanın əvvəlində ölkədə yalnız 6 laboratoriyada bu infeksiya müəyyən olunurdusa, indi 34 laboratoriya bu işə cəlb edilib.

Tibbi maskalara və dezinfeksiya vasitələrinə artan ehtiyacları ödəmək üçün onların istehsalı üzrə beynəlxalq İSO standartlarına uyğun iki müəssisə qısa müddətdə istifadəyə verilib.

Karantin zamanı əhalinin sosial-iqtisadi vəziyyətini nəzərə alaraq, Prezidentin göstərişinə uyğun surətdə, işçilərin iş yerləri və əməkhaqları saxlanılıb, daimi iş yerləri olmayanlara sosial müavinət verilib.

Tibb işçilərinin pandemiya şəraitində fədakar əməyini yüksək qiymətləndirən ölkə rəhbərliyi COVID-19 infeksiyası ilə mübarizə aparan səhiyyə işçilərinin əməkhaqlarının 3-4-5 dəfə artırılması ilə bağlı qərar qəbul edib.

Xarici siyasətə gəlincə, ölkəmiz koronavirus epidemiyası şəraitində növbəti dəfə özünün humanist dəyərlərə sadiqliyini nümayiş etdirib. Belə ki, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon ABŞ dolları həcmində ianə verib, əlavə olaraq, sədrlik etdiyi Qoşulmama Hərəkatı ölkələrinə yardım üçün ÜST-yə daha 5 milyon ABŞ dolları ayırıb. Bundan başqa, Azərbaycan pandemiya ilə mübarizə məqsədilə 30-dan artıq ölkəyə humanitar yardım edib.

Ümumilikdə, Azərbaycan hökumətinin koronavirus pandemiyası ilə mübarizə modelini «Dünya ilə həmrəylik və hər bir vətəndaş üçün məsuliyyət» adlandırmaq olar.

Bu pandemiya bir daha bütün dünyaya xatırlatdı ki, cəmiyyətin tərəqqisinin, sosial, iqtisadi və siyasi stabilliyinin əsasını sağlamlığı müəyyənləşdirən sosial amillər təşkil edir. Sağlam ictimai səhiyyə gələcəyə qoyulan ən əsas sərmayədir».

Qeyd edək ki, ÜST Avropa Regional Komitəsinin budəfəki virtual toplantısı Azərbaycan da daxil olmaqla, Avropa regionu ölkələrinə COVID-19 pandemiyası kimi qlobal əhəmiyyətli səhiyyə məsələsini müzakirə etmək imkanı verib. Sessiyada qəbul olunan qərarlar ÜST Avropa regionu ölkələrində yaşayan 900 milyon insanın sağlamlığına və rifahına təsir göstərə biləcək kollektiv öhdəliklər yaradır.

## Səhiyyə Nazirliyi ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının davamlı əməkdaşlıq məsələləri müzakirə edildi



**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev Bakıya səfəri çərçivəsində Səhiyyə Nazirliyində olub. Səhiyyə naziri Oqtay Şirəliyev və Nazirliyin digər rəsmiləri ilə görüşdə Azərbaycanda COVID-19 virusuna qarşı aparılan mübarizə tədbirləri müzakirə edilib.**

Səhiyyə naziri Oqtay Şirəliyev ölkəmizdə səhiyyənin vəziyyəti haqqında qonağa məlumat verib, Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizə və müalicə üsullarından danışıb. Nazir bildirib ki, COVID-19-a qarşı mübarizədə ölkələrin bir-biri ilə və beynəlxalq təşkilatlarla səhiyyə və tibb elmi sahəsində əməkdaşlığı və həmrəyliyi müstəsna əhəmiyyət daşıyır.

Baş katib Bağdad Amreyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına daxil olan ölkələrin səhiyyə sahəsində əməkdaşlığının daha da gücləndirilməsinin vacibliyini xüsusi vurğulayıb. Azərbaycanda COVID-19-a qarşı mübarizə üzrə səhiyyə siyasətinin qurulması, poliklinik-ambulator xidmətin bu işə cəlb edilməsi və stasionarların hazırlanması da qeyd edilib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına daxil olan ölkələrin səhiyyə nazirlərinin görüşündən sonra bu qurumda Elmi-Tibbi Qrupun, eləcə də Təchizat Zənciri Qrupunun yaradılması diqqətə çatdırılıb.

Görüşün sonunda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi arasında davamlı əməkdaşlıq məsələləri müzakirə edilib.

## Səhiyyə naziri qripə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə əmr imzalayıb

**Səhiyyə naziri Oqtay Şirəliyev Ümumdünya Səhiyyə Təşkilatının «Qriplə mübarizəyə dair Qlobal Strategiya 2019-2030» sənədinə uyğun olaraq, davam edən COVID-19 pandemiyası şəraitində, hər il olduğu kimi, mövsümi qriplə bağlı əmr imzalayıb.**

«2020-2021-ci ilin payız-qış mövsümündə respublikada qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə» əmrdə payız-qış mövsümünün başlanması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlərin, həmçinin infeksiya üzərində epidemioloji monitorinqin gücləndirilməsi məqsədilə Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə müvafiq tapşırıqlar, eləcə də digər dövlət tibb müəssisələrinə tövsiyələr verilib.

Azərbaycanın bütün şəhər və rayonlarında müəyyən olunmuş əhali qrupları arasında qrip əleyhinə vaksinasiya tədbirlərinin 2020-ci ilin oktyabrın 12-dən başlayaraq bir ay ərzində həyata keçirilməsi, eləcə də əhali arasında qrip və kəskin respirator virus xəstəliklərinin profilaktikası məqsədilə sanitariya maarifi işinin aparılması, ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində tibbi müşahidələrin təşkili, qripə şübhəli xəstələrin, xüsusən uşaqlar və yaşlı əhalinin hospitalizasiyası, zəruri hallarda tibb müəssisələrində məhdudlaşdırıcı rejimin tətbiqi, tibb personalının fərdi qoruyucu vasitələrdən (maskalardan) istifadə etməsinin təmin olunması ilə bağlı göstərişlər sənəddə əks olunub. Əmrdə profilaktik dezinfeksiya işlərinin gücləndirilməsi, qrip və kəskin respirator virus xəstəliklərinin müalicəsi üçün dərman preparatları ehtiyatının yaradılması kimi məsələlər də yer alıb.

Ölkənin şəhər və rayonlarının gigiyena və epidemiologiya mərkəzlərinin rəhbərlərinə ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində, habelə tibb müəssisələrində sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayət olunması, buna nəzarətin gücləndirilməsi tapşırılıb.

## Analitik Ekspertiza Mərkəzi beynəlxalq təşkilata üzvlük prosedurunun ilkin mərhələsinə qəbul edilib

Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) əczaçılıq sahəsində milli tənzimləyici orqan kimi, yerli və xarici dərman vasitələri istehsalçılarının Etibarlı İstehsalat Təcrübəsinin (EİT) tələblərinə uyğunluğunu qiymətləndirmək üçün mütəmadi addımlar atır. Həyata keçirilən təftişlərin effektivliyinin daha da artırılması, bu sahədə mövcud qanunvericiliyin beynəlxalq standartlarla uyğunlaşdırılması, EİT təftişlərini aparan işçi heyətinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, həmçinin EİT sahəsində milli, regional və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi üçün davamlı tədbirlər görülür.

Bu işləri daha yüksək səviyyədə həyata keçirmək məqsədilə Analitik Ekspertiza Mərkəzi bu ilin avqust ayında PICS (Pharmaceutical Inspection Convention and Pharmaceutical Inspection Co-operation Scheme — Əczaçılıq Təftişi Konvensiyası və Əczaçılıq Təftişi üzrə Əməkdaşlıq Sistemi) beynəlxalq təşkilatına üzv olmaq üçün müraciət edib və üzvlük prosedurunun ilkin mərhələsinə qəbul olunub.

AEM-dən bildirilib ki, sözügedən təşkilat dünya ölkələrinin əczaçılıq sahəsində milli tənzimləyici orqanları arasında əməkdaşlığın qurulması məqsədilə Avropa Azad Ticarət Assosiasiyası tərəfindən 1970-ci ildə yaradılıb və hazırda ümumilikdə 53 üzvü var.

# Avropa İttifaqı və ÜST Səhiyyə Nazirliyinə koronaviruslu xəstələrin müalicəsində istifadə olunan avadanlıqlar verib

**Avropa İttifaqı (Aİ) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19 ilə yoluxmuş ağır xəstələrin müalicəsinə kömək məqsədilə Azərbaycanın Səhiyyə Nazirliyinə 129 oksigen konsentratoru və 60 pulsoksimetr təhvil verib. Bu tibbi ləvazimatlar Aİ-nin maliyyə dəstəyi ilə ÜST-nin Avropa Regional Ofisi tərəfindən «Sağlamlıq üçün həmrəylik təşəbbüsü» layihəsi çərçivəsində ölkəyə gətirilib.**




Oksigen konsentratorları xəstəxanaya yerləşdirilmiş COVID-19-lu xəstələri oksigenlə təmin edən qeyri-invaziv bir vasitədir. Bu yolla xəstəyə verilən oksigen qanında oksigenin səviyyəsi aşağı olan koronaviruslu ağır xəstələrin müalicəsi üçün ilk önəmli addımdır və müalicə üçün əsas prioritetdir.

Ölkəyə gətirilmiş pulsoksimetrlər isə xəstələrdə qanda oksigen səviyyəsini ölçməyə kömək edir.

«Aİ-nin «Sağlamlıq üçün həmrəylik təşəbbüsü» layihəsi tərəfdaşımız olan Azərbaycanda səhiyyə sistemini birinci mərhələdə fərdi qoruyucu vasitələrlə, indi isə həyatları xilas etməyə yardım edəcək zəruri tibbi avadanlıqlarla dəstəkləməyə davam edir», — deyə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas qeyd edib.

«Sağlamlıq üçün həmrəylik təşəbbüsü» vasitəsilə COVID-lə yerli səviyyədə aparılan mübarizə tədbirlərinə töhfə verdiyimiz üçün çox şadıq və ümid edirəm ki, bununla da Azərbaycanda fərq yarada biləcəyik», — deyə ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı bildirib: «Bu cür ləvazimatlar oksigen müalicəsinə ehtiyacı olan insanlarda ciddi xəstəliklərin və ölüm hallarının qarşısını almaq üçün çox önəmlidir. Xəstəliyin insanlar arasında yayılmasının qarşısını almaq üçün əlimizdən gələni etməklə yanaşı, xəstəxanalara müvafiq qayğının göstərilməsi də son dərəcə vacibdir».

«Yüksək keyfiyyətli oksigen konsentratoru və pulsoksimetr tibbi ləvazimatlarının təchizatı üçün tərəfdaşlarımıza minnətdarıq. Aİ və ÜST-nin Azərbaycana verdiyi bu dəstək COVID-19-a yoluxmuş xəstələrin müalicəsi üçün istifadə ediləcək», — deyə Səhiyyə nazirinin müavini Rahim Əliyev qeyd edib.

Layihənin birinci mərhələsində, Azərbaycanda tibb işçilərinin COVID-19 pandemiyasına effektiv və təhlükəsiz şəkildə cavab tədbirlərinə dəstək məqsədilə Bakı və regionlardakı 86 səhiyyə müəssisəsinə fərdi qoruyucu vasitələr paylanılıb. Aİ və ÜST həmçinin tibb işçiləri üçün 8 canlı və 7 onlayn «Təlimçilər üçün təlim» sessiyası təşkil edib. Bu da öz növbəsində gələcəkdə daha çox tibb işçisinə COVID-19-lu xəstələrin idarə edilməsində ən son metodlar haqqında təlim keçməyə kömək edəcək.

Bu böyük əhəmiyyət daşıyan ləvazimatların ianəsi hazırda 216-dan çox ölkəni və ərazini əhatə edən COVID-19 pandemiyasına qarşı Avropa İttifaqının mübarizə tədbirlərinin tərkib hissəsidir. Avropa İttifaqı 2020-ci il martın 27-də Şərqi Avropa və Qafqazın altı ölkəsində, o cümlədən Azərbaycanda COVID-19 pandemiyasının qarşısının alınması, virusun aşkarlanması və ona qarşı mübarizə tədbirlərinin görülməsi məqsədilə 30 milyon avroluq yardım paketi ayırdığını elan edib. Bu vəsait ilkin olaraq zəruri ləvazimatların alınması, tibb işçiləri və virusa qarşı ön cəbhədə mübarizə aparan digər şəxslər üçün təlimlərin keçirilməsi kimi fövqəladə ehtiyacları ödəmək məqsədilə istifadə edilir. Uzunmüddətli perspektivdə bu yardım ölkənin ictimai səhiyyə sahəsində fövqəladə hallara qarşı mübarizə potensialının gücləndirilməsinə yönəldiləcək.

Layihə Avropa İttifaqının və ÜST-nin Azərbaycana davamlı dəstəyinin tərkib hissəsidir.

# ATU ilə Qazi Universiteti arasında əməkdaşlıq yeni formata keçir

**Azərbaycan Tibb Universiteti (ATU) və Türkiyənin Qazi Universitetinin rektorlarının iştirakı ilə vebinar keçirilib. Onlayn görüşdə iki ali məktəb arasında əməkdaşlıq, pandemiya dövründə fəaliyyətin əlaqələndirilməsi, qarşılıqlı layihələr barədə fikir mübadiləsi aparılıb.**

**ATU-nun rektoru, professor Gəray Gəraybəyli** rəhbərlik etdiyi müəssisədə Türkiyədən 775 nəfərin təhsil aldığını bildirib: «Onlardan 754 nəfəri tələbə, 21 nəfəri rezidentdir. Həmçinin universitetimizlə Türkiyənin 23 universiteti arasında anlaşma memorandumu var. Bu sazişlər çərçivəsində bir çox sahələr üzrə qarşılıqlı fəaliyyət həyata keçirilir, birgə işlər görülür».

G.Gəraybəyli qeyd edib ki, ATU və Qazi Universiteti arasında da anlaşma memorandumu imzalanıb. Yaxın vaxtlarda bu sənədin şərtlərinin yenilənməsi planlaşdırılır. Rektor bildirib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə «2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı» qəbul edilib. Bu ilin əvvəlindən başlayan pandemiyaya baxmayaraq, ölkədə ali təhsilin keyfiyyətinin artırılması üçün ciddi işlər görülür. ATU-nun Qazi Universiteti ilə yenidən imzalayacağı memorandum çərçivəsində görüləcək işlər bu proqramın tələblərinə uyğun olacaq.

**Qazi Universitetinin rektoru professor Musa Yıldız** Azərbaycan Tibb Universiteti ilə əməkdaşlığın yüksək səviyyədə davam edəcəyindən əminliyini bildirib: «Biz istənilən sahə üzrə dəstəyimizi göstərməyə hazırıq. Bildiyimiz qədər, bu il ATU-da ilk dəfə olaraq «tibb bacısı» ixtisası üzrə təhsilə start verilir. Qazi Universitetində artıq neçə illərdir ki, eyni ixtisas üzrə təhsil mövcuddur. Biz bu sahədə təcrübəmizi Azərbaycanla bölüşməyə hazırıq. Bu məqsədlə «tibb bacısı» ixtisası üzrə onlayn dərslərimizdə ATU tələbələrinin iştirakını da təmin edə bilərik».

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli** ATU-da yeni açılan «tibb bacısı» ixtisası üzrə təhsilin tədrisində Qazi Universitetinin təklif etdiyi proqramı yüksək qiymətləndirib: «Bu, Azərbaycan təhsilində bir ilk olduğuna görə «tibb bacısı» ixtisası üzrə dərslər əsasən həkimlər tərəfindən aparılır. Qazi Universiteti müəllimlərinin bu məsələdə yardımı Azərbaycanda da həmin ixtisas üzrə dərslərin təkmilləşdirilməsi, tələbələrin daha yaxşı qavramasına səbəb olacaq. Yekunda iki universitet arasında ikili diplom proqramını hazırlayıb, təsdiq üçün aidiyyətli orqanlara təqdim etməyi planlaşdırırıq».

Görüşdə ikili diplom məsələsi, universitetlər arasında virtual əməkdaşlığın gücləndirilməsi, Qazi Universiteti ilə ATU arasında tədris proqramlarının uyğunlaşdırılması üçün müvafiq işlərin görülməsinin vacibliyi barəsində müzakirələr aparılıb.

**Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova** iki ölkə arasında hər bir sahədə olduğu kimi, təhsil sahəsində də ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edərək, bu əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirib.

# Həkimləri Təkmilləşdirmə İnstitutunun illik təqvim planında çoxsaylı distant kurslar nəzərdə tutulub

**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ) başlayan yeni tədris ili üçün Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş təqvim planında həkimlərin diplomdansonrakı təhsilinin Davamlı Tibb Təhsili konsepsiyasına uyğun təşkil edilməsinə böyük əhəmiyyət verilib.**

Bu il üçün tərtib olunmuş təqvim planlarına müasir, sübutlu əsaslandırılmış, informasiya və təhsil texnologiyalarına əsaslanan ixtisasartırma kursları ilə yanaşı, ixtisaslar üzrə təhsil proqramlarının — modulların yenilənməsi, müxtəlif aktual mövzularda tematik modulların işlənib hazırlanması və keçirilməsi, yeni tədris materiallarının hazırlanması, kursların müddətinin qısaldılması və tədrisin praktik yönümlülüyünün gücləndirilməsi də daxil edilib. Kursların müddəti Davamlı Tibbi Təhsil proqramına uyğun olaraq optimallaşdırılıb, kursların sayı artırılıb, mövzu çeşidi genişləndirilib, yaxın ixtisaslara aid kurslar təşkil edilib və bu barədə məlumatlar Səhiyyə Nazirliyinin saytında yerləşdirilib.

İllik təqvim planında çoxsaylı distant kurslar nəzərdə tutulub. Bu kursların iştirakçıları institutda yaradılmış distant tədris portalına daxil olaraq, mühazirələri dinləyə bilərlər. Həmin portalda davamlı tibbi tədris fayllarının sayı 808-ə çatdırılıb. Bununla yanaşı, son dövrdə distant tədrisin daha da genişləndirilməsinə və daha çox həkim-mütəxəssisin bu təhsildən yararlanmasına nail olmaq üçün institutda mühazirə dərslərinin video-arxivi yaradılıb.

COVID-19 pandemiyası ilə əlaqədar indiki karantin dövründə bütün kafedralarda tədris prosesi onlayn qaydada aparılır. Kurslar başa çatandan sonra institutun rəsmi saytına müraciət etməklə şəhadətnamələri almaq olar.

Onlayn kursların coğrafiyası ölkəmizin bütün bölgələrini əhatə edir. Kursların davam etdirilməsi nəticəsində həkimlərin sertifikasiya prosesinin təşkili də mümkündür.

# Elmi Tədqiqat Pediatriya İnstitutunun 60-a yaxın əməkdaşı oftalmoloji müayinə olunub

**Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Avtomobil Səyyar klinikası K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunda tibbi aksiya keçirib.**



Mərkəzin Elmi-məlumat, tədris və təşkilati-metodik bölməsindən verilən xəbərə görə, aksiya çərçivəsində institutun 59 əməkdaşı müayinə olunub.

Xüsusi karantin rejiminin tələblərinə əməl olunmaqla həyata keçirilən aksiyanın əsas məqsədi pasiyentləri vaxt itirmədən, yerindəcə, operativ şəkildə müayinə və müalicə etmək, göz xəstəlikləri ilə bağlı monitorinqlər aparmaq, əldə edilən nəticələri müzakirə etmək, aşkarlanan problemlərin həllinə nail olmaqdır.

Qeyd edək ki, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin avtomobil və dəmiryolu səyyar klinikaları mütəmadi olaraq paytaxtda və ölkənin bir çox regionlarında aksiyalar keçirir.

# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan elmi təhsil müəssisələrinə elmi tədqiqat institutlarına və mərkəzlərə 2020-ci il üçün doktorantura və dissertant hazırlığı üzrə qəbul

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu 2020-ci il üçün doktorantura və dissertant hazırlığı üzrə qəbul elan edir:

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura (qiyabi, ödənişli əsaslarla):*
- «Daxili xəstəliklər» (3205.01) ixtisası üzrə - 2.0
- «Səhiyyə və onun təşkili» (3212.01) ixtisası üzrə - 3.0
- «Cərrahlıq» (3213.01) ixtisası üzrə - 2.0
- «Mamalıq və ginekologiya»(3215.01) ixtisası üzrə - 2.0
- «Endokrinologiya» (3216.01) ixtisası üzrə - 2.0
- «Pediatriya» (3220.01) ixtisası üzrə - 1.0
- «Sinir xəstəlikləri» (3223.01) ixtisası üzrə - 1.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə -1.0
- «Stomatologiya» (3226.01) ixtisası üzrə - 2.0
- «Urologiya» (3234.01) ixtisası üzrə - 1.0
- «Qastroenterologiya» (3238.01) ixtisası üzrə - 1.0
- «Gigiyena» (3240.01) ixtisası üzrə - 1.0
- «Allerqologiya və immunologiya» (3244.01) ixtisası üzrə-1.0

*Elmlər doktoru proqramı üzrə doktorantura (qiyabi, ödənişli əsaslarla):*
- «Səhiyyə və onun təşkili» (3212.01) ixtisası üzrə - 1.0
- «Cərrahlıq» (3213.01) ixtisası üzrə - 1.0
- «Mamalıq və ginekologiya» (3215.01) ixtisası üzrə - 1.0
- «Stomatologiya» (3226.01) ixtisası üzrə - 1.0

*Sənədlər 20 oktyabr 2020-ci il tarixinə kimi aşağıdakı ünvanda qəbul edilir:*
*Ünvan: Bakı şəh., Tbilisi pr., 3165-ci məhəllə.*
*Tel: 431-40-33*

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzi 2020-ci il üçün doktorantura və dissertant hazırlığı üzrə qəbul elan edir:

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Onkologiya» (3224.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə (qiyabi) - 1.0

*Elmlər doktoru proqramı üzrə doktorantura:*
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə (qiyabi) - 1.0

*Sənədlər 20 oktyabr 2020-ci il tarixinə kimi aşağıdakı ünvanda qəbul edilir:*
*Ünvan: Bakı şəh., Zərdabi küç. 79 «B».*
*Tel: 530-41-66*

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi 2020-ci il üçün doktorantura və dissertant hazırlığı üzrə qəbul elan edir:

*Fəlsəfə doktoru proqramı üzrə dissertant hazırlığı:*
- "Göz xəstəlikləri" (3219.01) ixtisası üzrə - 2.0

*Sənədlər 20 oktyabr 2020-ci il tarixinə kimi aşağıdakı ünvanda qəbul edilir:*
*Ünvan: Bakı şəh., Cavadxan küç. məhəllə 32/15.*
*Tel: 569-09-07*

## Azərbaycan Tibb Universiteti 2020-ci il üçün doktorantura və dissertant hazırlığı üzrə qəbul elan edir:

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Biokimya» (2406.02) ixtisası üzrə (əyani) - 1.0
- «Biokimya» (2406.02) ixtisası üzrə (qiyabi) - 1.0
- «Biokimya» (2406.02) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 1.0
- «Hüceyrə biologiyası, sitologiya və histologiya» (2407.01) ixtisası üzrə (əyani) - 2,0
- «İnsan və heyvan fiziologiyası» (2411.01) ixtisası üzrə (qiyabi) - 1,0
- «Məhkəmə təbabəti» (3203.01) ixtisası üzrə (əyani) -1.0
- «Qida gigiyenası» (3206.01) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 1.0
- «Farmakologiya, klinik farmokologiya» (3209.01) ixtisası üzrə (əyani) - 1.0
- «Farmakologiya, klinik farmokologiya» (3209.01) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 1.0
- «Psixiatriya» (3211.01) ixtisası üzrə (əyani) - 1.0
- «Psixiatriya» (3211.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Cərrahlıq» (3213.01) ixtisası üzrə (əyani) - 2.0
- «Mamalıq və ginekologiya» (3215.01) ixtisası üzrə (əyani) - 2.0
- «Yoluxucu xəstəliklər» (3221.01) ixtisası üzrə (əyani) - 1.0
- «Yoluxucu xəstəliklər» (3221.01) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 1.0
- «Onkologiya» (3224.01) ixtisası üzrə (əyani) - 1.0
- «Onkologiya» (3224.01) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 1.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə (əyani) - 1.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 2.0
- «Stomatologiya» (3226.01) ixtisası üzrə (əyani) -1.0
- «Stomatologiya» (3226.01) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 1.0
- «Uşaq cərrahlığı» (3230.01) ixtisası üzrə (əyani) -1.0
- «Uşaq cərrahlığı» (3230.01) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 1.0
- «Urologiya» (3234.01) ixtisası üzrə (əyani) - 1.0
- «Gigiyena» (3240.01) ixtisası üzrə (əyani) - 1.0
- «İnsan anatomiyası» (3241.01) ixtisası üzrə (əyani) - 2.0
- «Patoloji anatomiya» (3242.01) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 1.0
- «Patoloji fiziologiya» (3243.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Allerqologiya və immunologiya» (3244.01) ixtisası üzrə (əyani) - 1.0
- «Allerqologiya və immunologiya» (3244.01) ixtisası üzrə (qiyabi ödənişli əsaslarla) - 1.0
- «Əczaçılıq kimyası, farmakoqnoziya» (3400.02) ixtisası üzrə (əyani) - 1.0

*Fəlsəfə doktoru proqramı üzrə dissertant hazırlığı:*
- «Biokimya» (2406.02) ixtisası üzrə (ödənişli əsaslarla) - 1.0
- «İnsan və heyvan fiziologiyası» (2411.01) ixtisası üzrə - 1.0
- «Mikrobiologiya» (2414.01) ixtisası üzrə (ödənişli əsaslarla) - 2.0
- «Daxili xəstəliklər» (3205.01) ixtisası üzrə - 4.0
- «Psixiatriya» (2414.01) ixtisası üzrə - 2.0
- «Psixiatriya» (2414.01) ixtisası üzrə (ödənişli əsaslarla) - 1.0
- «Cərrahlıq» (3213.01) ixtisası üzrə - 1.0
- «Mamalıq və ginekologiya» (3215.01) ixtisası üzrə - 2.0
- «Sinir xəstəlikləri» (3223.01) ixtisası üzrə (ödənişli əsaslarla) - 2.0
- «Onkologiya» (3224.01) ixtisası üzrə (ödənişli əsaslarla) - 2.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə - 1.0
- «Stomatologiya» (3226.01) ixtisası üzrə - 1.0
- «Stomatologiya» (3226.01) ixtisası üzrə (ödənişli əsaslarla) - 1.0

*Elmlər doktoru proqramı üzrə doktorantura:*
- «Biokimya» (2406.02) ixtisası üzrə (qiyabi) - 1.0
- «Məhkəmə təbabəti» (3203.01) ixtisası üzrə (əyani) - 1.0
- «Qida gigiyenası» (3206.01) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 1.0
- «Farmakologiya, klinik farmokologiya» (3209.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Uşaq cərrahlığı» (3230.01) ixtisası üzrə (qiyabi, ödənişli əsaslarla) - 1.0

*Elmlər doktoru proqramı üzrə dissertant hazırlığı:*
- «Hüceyrə biologiyası, sitologiya və histologiya» (2407.01) ixtisası üzrə (əyani) - 2,0
- «İnsan və heyvan fiziologiyası» (2411.01) ixtisası üzrə (qiyabi) - 1,0
- «Psixiatriya» (3211.01) ixtisası üzrə - 1.0
- «Cərrahlıq» (3213.01) ixtisası üzrə - 1.0
- «Mamalıq və ginekologiya» (3215.01) ixtisası üzrə - 1.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə - 1.0
- «Stomatologiya» (3226.01) ixtisası üzrə - 1.0
- «Urologiya» (3234.01) ixtisası üzrə - 1.0
- «İnsan anatomiyası» (3241.01) ixtisası üzrə - 1.0

*Sənədlər 20 oktyabr 2020-ci il tarixinə kimi aşağıdakı ünvanda qəbul edilir:*
*Ünvan: Bakı şəh., Ə.Qasımzadə küç., 14*
*Tel: 597-43-23*

**Baş redaktor:**
**N.MƏCİDOVA**

**Baş redaktorun müavini:**
**S.NƏBİYEVA**

**Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.**

**Təsisçi:**
**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**

**Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər.**
**Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.**
**Qeydiyyat nömrəsi: B92**

**Ünvan: Cəfər Cabbarlı, 34. 1-ci mərtəbə**
**E-mail: tibbqazeti@mail.ru**

**Tel./fax: 596-06-61**

**Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.**
**İndeks: 1065**
**Tiraj: 11300**







## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

Oftalmologiya kafedrasının müdiri (t.e.d., professor)
Əczaçılıq kafedrasının müdiri (t.e.d., professor, dosent, t.ü.f.d.)
Psixiatriya və narkologiya kafedrasının müdiri (t.e.d., professor)
Nefrologiya kafedrasının müdiri (t.e.d., professor)
Urologiya kafedrasının müdiri (t.e.d., professor)
Otorinolarinqologiya kafedrasının müdiri (t.e.d., professor)
Gigiyena kafedrasının müdiri (t.e.d., dosent, t.ü.f.d.)
Məhkəmə təbabəti və anatomiya kafedrasının müdiri (t.e.d., professor)
Ailə təbabəti kafedrasının müdiri (t.e.d., professor)
Travmatologiya və ortopediya kafedrasının müdiri (t.e.d., professor)
Oftalmologiya kafedrasının professoru (t.e.d., professor)
Dermatovenerologiya kafedrasının professoru (t.e.d., professor)
Səhiyyənin təşkili və menecmenti kafedrası, pedaqogika, psixologiya və xarici dil kursu ilə kafedrasının professoru (t.e.d., professor)
Ailə təbabəti kafedrasının professoru (t.e.d., professor)
Səhiyyənin təşkili və menecmenti kafedrası, pedaqogika, psixologiya və xarici dil kursu ilə kafedrasının baş müəllimi (t.e.d.)
Əczaçılıq kafedrasının baş müəllimi (ə.ü.f.d.)
Hematologiya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Terapiya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Terapiya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Otorinolarinqologiya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Anesteziologiya və reanimatologiya kafedrasının dosenti (t.e.d.)
Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti (t.ü.f.d., dosent)
Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti (t.ü.f.d., dosent)
Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti (t.ü.f.d., dosent)
Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti (t.ü.f.d., dosent)
Uşaq cərrahiyyəsi və plastik cərrahiyyə kursları ilə ümumi cərrahiyyə kafedrasının dosenti (t.ü.f.d., dosent)
Laborator işi kafedrasının dosenti (t.ü.f.d., dosent)
Nefrologiya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Pediatriya kafedrasının dosenti (t.e.d., dosent)
Pediatriya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Pediatriya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Pediatriya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Pediatriya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Şüa diaqnostikası kafedrasının dosenti (t.ü.f.d., dosent)
Şüa diaqnostikası kafedrasının dosenti (t.ü.f.d., dosent)
Nevrologiya və klinik neyrofoziologiya kafedrasının dosenti (t.ü.f.d.)
Otorinolarinqologiya kafedrasının assistenti (t.ü.f.d.)
Terapiya kafedrasının assistenti (t.ü.f.d.)
Terapiya kafedrasının assistenti (t.ü.f.d.)
Oftalmologiya kafedrasının assistenti (t.ü.f.d.)
Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti(t.ü.f.d.)
Hematologiya kafedrasının assistenti (t.ü.f.d.)
Laborator işi kafedrasının assistenti (b.ü.f.d.)
Şüa diaqnostikası kafedrasının assistenti
Yoluxucu xəstəliklər kafedrasının assistenti
Ailə təbabəti kafedrasının assistenti
Terapiya kafedrasının assistenti
Dermatovenerologiya kafedrasının assistenti
Dermatovenerologiya kafedrasının assistenti

*Ünvan:Tbilisi pr., 3165-ci məh.*
*Telefon: 431-01-82*

### «Respublika Gigiyena və Epidemiologiya Mərkəzi» PHŞ

Feldşer-laborant - 1.0

*Ünvan: A.Manaf küç., 22.*
*Telefon: 421-63-41*

### «Bakı şəhər Narkoloji Mərkəzi» PHŞ

Tibbi-statistik - 1.0

*Ünvan: Şeyx Hüseyn, 69/71*
*Telefon: 455-07-61*

### Tovuz Rayon GEM

Həkim-epidemioloqun köməkçisi - 1.0
Sanitar-feldşer - 2.0

*Ünvan: Aşağı öysüzlüy kəndi*
*Telefon: (02231) 5-69-63*

### ATU-nun Tədris Cərrahiyyə Klinikası

Provizor - 1.0

*Ünvan: Mirqasımo küç., 2.*
*Telefon: 449-82-54*

### Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi PHŞ

Tibb bacısı (qardaşı) - 2.0
Laborant - 1.0

*Ünvan: Mir-Qasımov küç., 1*
*Telefon: 595-21-25*

### Astara Rayon GEM

Sanitar-feldşer - 1.0

*Ünvan: M.Cavadzadə küç., 2*
*Telefon: (02522) 5-10-51*

### Ucar Rayon GEM

Sanitar-feldşer - 2.0

*Ünvan: Oğuz küç., 100*
*Telefon: (02421) 3-25-91*

### Gəncə Tibb Kolleci

Ortopedik stomatologiya fənni üzrə müəllim - 1.0
Gigiyena fənni üzrə müəllim - 1.0
Uşaq xəstəlikləri fənni üzrə müəllim - 1.0

*Ünvan: İsmət Qayıbov küç., 14*
*Telefon: (02225) 6-83-47*

*Qeyd: Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduğu gündən etibarən 30 gün ərzində aşağıdakı sənədləri elanda qeyd olunan ünvana təqdim etməlidirlər:*
- *müəssisə rəhbərinin adına yazılmış ərizə;*
- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *təhsil və ixtisas haqqında sənədlərin surəti;*
- *əmək kitabçasının surəti (mövcud olduğu halda);*
- *sağlamlıq haqqında arayış;*
- *nikah haqqında şəhadətnamənin surəti (mövcud olduğu halda).*